Ədəbiyyat qəzeti



# Telman VƏLİXANLI (Cəfərov) - 60

Hörmətli Telman müəllim!

Sizi - respublikamızda və onun xaricində yaxşı tanınan ədəbiyyatşünas alimi, naşir və tərcüməçini, ədəbiyyat üzrə bir neçə nəsil dərsliklərin müəllifini və pedaqoqumuzu 60 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 22 iyul 1963-cü ildə Yardımlı rayonunun Vəlixanlı kəndində anadan olmusunuz. 1985-ci ildə indiki Bakı Slavyan Universitetini (BSU) fərqlənmə diplomu ilə bitirmiş, 1983-1984-cü illərdə göndərişlə Həştərxan Dövlət Universitetinin Filologiya fakültəsində təhsil almısınız. 1988-92-ci illərdə əyani aspiranturada təhsil alıb, aspirantura müddətində ordu sıralarında xidmət edib, normativ müddətdən əvvəl namizədlik dissertasiyasını tamamladığınıza və müdafiə etdiyinizə görə mükafatlandırılmısınız. 1992-ci ildən BSU-nun rus ədəbiyyatının tarixi kafedrasının müəllimi, dosenti və professoru vəzifələrində çalışmısınız.

1993-cü ildə "Mütərcim" Tərcümə Mərkəzini, 1994-cü ildə eyniadlı nəşriyyatı, 1995-ci ildə "Turan" liseyini, 1996-cı ildə "Mütərcim" tərcümə və ədəbi-bədii jurnalını təsis etmisiniz. 1995-ci ildən "Humanitar elmlərin aktual problemləri" ali məktəblərarası elmi məcmuəni nəşr edirsiniz.

1992-ci ildə "M.Y.Lermontovun nəsri Azərbaycan ədəbiyyatşünaslığı və tərcümələrində" mövzusunda namizədlik, 2004-cü ildə "Qədim rus ədəbiyyatında slavyan-türk əlaqələri" adlı doktorluq dissertasiyalarını müdafiə etmisiniz.

2006-2023-ci illər ərzində təlim rus dilində aparılan məktəblər üçün tərtib edilən "Ədəbiyyat" proqramının, fənn kurikulumunun, dərslik komplektlərinin müəlliflərindənsiniz. 2019-2023-cü illərdə sizin layihə rəhbərliyiniz və həmmüəllifliyiniz ilə V-VIII siniflər üçün yeni məzmunlu və tərtibatlı "Literatura" dərslik seriyası nəşr edilmişdir. 2017-ci ildə layihə rəhbərliyiniz, redaktorluğunuz və həmmüəllifliyiniz ilə Azərbaycanın ali məktəbləri üçün "Rus dili xarici dil kimi" dərslik vəsaiti, 2019-cu ildə isə Rusiyada yaşayan azərbaycanlı uşaqlar üçün milli-mədəni məzmunlu tədris vəsaitləri (I-IV siniflər) Moskvada işıq üzü görmüşdür.

2010-cu ildə F.M.Dostoyevskinin "Karamazov qardaşları" romanını ilk dəfə Azərbaycan dilinə çevirdiyiniz üçün Beynəlxalq Tərcümə Assosiasiyası və Rusiya Elmlər Akademiyasının Puşkin İnstitutu tərəfindən təsis olunmuş Beynəlxalq Tərcümə mükafatına, Azərbaycan Yazıçılar Birliyinin Tofiq Bayram adına, Azərbaycan Mədəniyyət Nazirliyinin "Qızıl kəlmə" ədəbi mükafatlarına və s. layiq görülmüsünüz.

2002-ci ildə Moskvada çap olunmuş və 2010-cu ildə Türkiyə türkcəsində Beynəlxalq Türksoy mükafatına təqdim olunmuş "XV-XVII əsrlər rus ədəbiyyatında türklər" kitabınız Ankarada Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu tərəfindən çap olunmuşdur. 2009-2013-cü illərdə Moskvada nəşr olunan "Literaturnaya qazeta"da və onun "Evraziyskaya muza" əlavəsində Azərbaycanın təmsilçisi kimi ədəbiyyatımızla bağlı materiallarla mütəmadi olaraq çıxış etmisiniz. Müəllifi olduğunuz "Ən yeni Azərbaycan ədəbiyyatı" fəsli Almatıda rus dilində çap olunmuş "Ən yeni xarici ədəbiyyat" məcmuəsinə (2011) daxil edilmişdir. 2006-cı ildən MAPRYAL-ın Azərbaycan üzrə koordinatoru, respublikamızda və xaricdə nəşr edilən bir sıra elmi və elmi-metodiki nəşrlərin redaksiya heyətinin üzvüsünüz.

Siz müxtəlif illərdə Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə latın qrafikası ilə buraxılmış 10-dan çox kitabın, o cümlədən antologiyaların tərtibçisi və ön sözün müəllifisiniz. Sizin təşəbbüsünüz və ön sözünüzlə 2014-cü ildə ikicildlik "Ən yeni rus ədəbiyyatı" antologiyası Azərbaycan, ikicildlik "Noveyşaya azerbaydjanskaya literatura" antologiyası isə rus dilində nəşr olunmuşdur.

Türkiyə, Rusiya, Gürcüstan, İngiltərə, Almaniya, Macarıstan, Serbiya, Qazaxıstan, Moldova və s. ölkələrdə ayrı-ayrı illərdə müxtəlif treninq və təlimlərin, konfrans və simpoziumların iştirakçısı olmusunuz. 30-dan çox kitabın, dərslik və dərslik vəsaitinin müəllifi və tərtibçisi, 300-dək məqalənin müəllifi, onlarla elmi, bədii və elmi-metodiki kitabın redaktorusunuz.

Təhsildə qazandığınız müvəffəqiyyətlərə və uzunmüddətli səmərəli fəaliyyətinizə görə "Əməkdar müəllim" Fəxri adına (2016) layiq görülmüsünüz.

Hörmətli, Telman müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, yaradıcılıqda və ömür yollarında uğurlar, cansağlığı arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**